Rəhimli Nigar Azər qızı

# ÇOXMƏDƏNİYYƏTLİLİYİN VƏ TOLERANTLIĞIN AZƏRBAYCANDA TARİXİ ƏNƏNƏLƏRİ

**"Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O, həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir. O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir".**

**Heydər Əliyev**

Azərbaycanda çoxmədəniyyətliliyin və tolerantlığın tarixi çox qədim və zəngindir. Azərbaycan əsrlər boyu müxtəlif dinlərin, ayrı-ayrı millətlər və konfessiyalar nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Bu da Azərbaycan xalqı üçün sözün əsl mənasında qürur mənbəyi olmuşdur. Keçmişə nəzər salsaq, görərik ki, əsrlər boyu Azərbaycan şərqlə qərbin kəsişməsində yerləşmişdi və bu da təbii ki, Azərbaycanda multikulturalizmin formalaşmasına güclü təkan vermişdi. Hələ 1918-ci ildə Müsəlman Şərqində ilk demokratik dövlətin qurulduğu dövrdə ölkəmizin ərazisində dinindən, etnik mənsubiyyətindən, irqindən asılı olmayaraq bütün vətəndaşlar eyni hüquqa malik idilər. Bizlər də, ilk Demokratik Azərbaycan Respublikasının varisləri kimi tarixi multikulturalizm ənənələrini qoruyub saxlamış və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik siyasətinə əsasən inkişaf etdirmişik.

Təbii ki, 1918-ci ilə qədər də Azərbaycanda multikulturalizm anlayışı var idi. Sadəcə bu anlayış hələ termin kimi istifadə edilmirdi. Əsrlər boyu müxtəlif ölkələrdə mövcud olan çoxmədəniyyətlilik multikulturalizm termini kimi ilk dəfə Kanadada 60-cı illərin əvvəllərində yaranmışdı (2).

Azərbaycanın əlverişli coğrafi yerləşməsi, təbiətinin zənginliyi və müxtəlifliyi və əhalisinin qonaqpərvərliyi bir çox millətlərdə maraq oyadırdı və müxtəlif xalqların nümayəndələrinin burada məskunlaşması səbəbi olmuşdu. Onlardan yəhudiləri, ən qədim etnik təbəqələrdən olan tatları, talışları, avarları, saxurları, müxtəlif etnoslardan ibarət olan və ən az saylı Şahdağ xalqlarını, rutulları, ingiloyları, köçəri xalq hesab edilən qaraçıları, assiriyalıları, yalnız Azərbaycan ərazisində mövcud olan udinləri, 1819-cu ildə Azərbaycanın ərazisində məskunlaşan almanları, molokanları, kürdləri, ən geniş yayılmış etnik qruplardan biri - ləzgiləri və digər etnik qrupların nümayəndələrini də qeyd etmək olar. Yəhudilərin Azərbaycan ərazisinə hələ XVI əsrdə İrandan gəlmiş olduğunu nümunə kimi göstərmək olar. Onlar ölkəmizin müxtəlif yerlərində, daha çox Bakıda, Sumqayıtda, Qubanın Qırmızı qəsəbəsində və digər yerlərdə yaşayırlar. Dağ yəhudiləri Azərbaycanda 3 qrupa bölünür:

• qubalılar — Azərbaycanın Quba rayonu, əsasən, Qırmızı Qəsəbə;
• şirvanlılar (şirvoni) — şimal-şərqi Şamaxı rayonunun keçmiş Müci kəndi, habelə Bakı;
• oğuzlular — Oğuz şəhəri, Gəncə, İsmayıllı, Şamaxı.

İran dil ailəsinə mənsub olan talışlar ölkəmizin cənub-şərqində, əsasən, Lənkəran, Masallı və Lerik rayonlarında yaşayırlar. Talışlar Azərbaycanın ən qədim yerli tayfalardan olan kadusilərin nəsli hesab edilirlər. Kürdlər Naxçıvan Muxtar Respublikasında, avarlar Zaqatala və Balakən, saxurlar Zaqatala və Qax rayonlarında, rutullar Şəkidə, XVIII əsrin ortalarında Azərbaycana gələn molokanlar Bakı, Sumqayıt, Şamaxı, İsmayıllı, Gədəbəy və Qubada, I Şah Abbasın dövründən bəri Azərbaycanda yerləşən ingiloylar ölkəmizin Qax və Zaqatala rayonlarında, udinlər Qəbələ rayonunun Nic kəndində və qismən də Oğuz rayonunda, almanlar Hacıkənddə, Şəmkirdə, Bakıda, tatlar isə Şirvan ərazisində yaşayırlar. Beləliklə, Azərbaycanın müxtəlif şəhərlərində, bölgə və kəndlərində müxtəlif etnik qruplar məskunlaşaraq öz dillərini, adət ənənələrini qoruyub saxlayaraq Azərbaycanın əhalisinin ayrılmaz hissəsinə çevrilmişlər (3).

Azərbaycanın ərazisində müxtəlif etnosların mövcudluğunun nəticəsi kimi ölkəmizin ərazisində müxtəlif dinlərin olması da təbii haldır. Beləliklə, hazırda ölkəmizdə müsəlman, xristian, yəhudi və digər icmalar sərbəst fəaliyyət göstərir. Ölkəmizdə Rus Pravoslav Kilsəsi, Alban-Udin xristian icması, Katolik və Lüteran kilsələri, sinaqoqlar və müxtəlif məscidlər fəaliyyət göstərir. Onlara hər zaman dövlət tərəfindən xüsusi qayğı göstərilir.

Çoxmədəniyyətlilik və tolerantlığın tarixin və zamanın müxtəlif sınaqlarına məruz qalmışdır. Əsasən XX əsrdə regionda baş verən hadisələr nəticəsində dini dözümlülük ənənələri bir çox problemlərlə üzləşdi. Həmin illər Ermənistanın elan edilməmiş müharibəsi, 20% torpaqlarımızın işğal altına düşməsi, bir milyondan çox qaçqın və köçkünlərin yaranması, iqtisadi böhran, xaos, separatizm dalğası və digər dəhşətli hadisələrlə yadda qalmışdır. Ölkədə fəaliyyət göstərən bəzi kilsələr və məscidlər bağlanmış, dağıdılmışdı. Lakin xalqın xahişi ilə hakimiyyətə qayıdan Heydər Əliyev patriot və müdrik siyasətçiyə xas olan uzaqgörənlik xüsusiyyətləri ilə doğma Azərbaycanı düşdüyü o çətin vəziyyətdən qurtara bildi. Ölkəmizdə yaşayan müxtəlif xalqlar birləşərək vahid tolerant dövlət yaratdılar. Azərbaycanda əsrlər öncə formalaşmış tarixi ənənələr Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində qorunub saxlanıldı. Öncə bağlanmış və ya dağıdılmış din ocaqlarına təzə həyat verildi. Tolerantlığın tərəfdarı olan Heydər Əliyev 1995-ci ildə təsis etdiyi Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsində mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarına hörmət edən qanun qəbul edildi. Simpoziumların birində çıxış edərək Heydər Əliyev belə demişdi: "Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dəyərlərinin xüsusiyyətidir. Bu, tarix boyu Azərbaycanda da, Qafqazda da öz əksini tapıbdır. Azərbaycanda islam dini ilə yanaşı, xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır. Qafqazda da bu mənzərə var. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı

olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar" (4). Beləliklə, 1993-ci ildən etibarən Azərbaycanda yeni dövr başladı və bu mərhələ ölkəmizi və xalqımızı parlaq gələcəyə aparan dövrdür!

İlham Əliyev Ulu Öndərin müdrik siyasətini davam etdirərək tolerantlıq və multikulturalizmə xüsusi diqqət ayırır. Son illər ərzində dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında keçirilən islahatlar nəticəsində bütün sahələrdə olduğu kimi, din sahəsində də uğurlar əldə edilmişdi. Azərbaycan Respublikasının Prezidentinın səyləri nəticəsində ölkəmizdə yerləşən bir sıra dini abidələr, müqəddəs yerlər, məscid və kilsələr əsaslı təmir edilmişdir. Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən Çotari alban-udi kilsəsi 2006-cı ildə bərpa edilmişdi. Ardınca, Bakıda Müqəddəs Məryəm Ana katolik kilsəsinin tikilişi üçün Heydər Əliyev tərəfindən ayrılmış ərazidə 2008-ci ildə İlham Əliyevin, Mehriban Əliyevanın və Vatikanın dövlət katibi kardinal Tarçizio Bertonenin iştirakı ilə təntənəli açılış olmuşdu. Multikulturalizmə dəstək vermək məqsədi ilə bir çox irimiqyaslı tədbirlər keçirilmişdi: Dünya Dini Liderlərinin Ümumdünya Sammiti, Bakı Beynəlxalq Humanitar Forumu, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, IV İslam Həmrəyliyi Oyunları. Bakı Bəyannaməsinin qəbul edilməsini də xüsusilə vurğulamaq lazımdır. Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2014-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi təsis edildi, 15 may 2014-cü il tarixli sərəncamı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdı və Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə 2016-cı il "Multikulturalizm ili" elan edilmişdir. İlham Əliyev çıxışlarının birində qeyd etmişdi: «Azərbaycanda milli və dini birgəyaşayışın ən sivil normaları mövcuddur, ölkədəki tolerantlıq mühiti, dövlət-din münasibətləri bütün dünyada nümunə kimi qəbul olunur».

Multikulturalizmin inkişaf etdirilməsində Heydər Əliyev Fondunun Prezidenti Azərbaycanın Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çox böyük rolu var. 2004-cü ildən fəaliyyətə başlayan bir çox irimiqyaslı layihələrin müəllifi olan Heydər Əliyev Fondu tolerantlığın qorunmasında böyük əmək sərf etmişdi. Ulu Öndər Heydər Əliyevin zəngin irsini təbliğ edən Fond daşıdığı adı tam məsuliyyətini doğruldaraq Azərbaycanda mədəniyyət, elm və təhsil, səhiyyə, idman və digər sahələrin inkişafını təmin edir. Haqlı olaraq deyə bilərik ki, dövlətin multikulturalizm və tolerantlıq siyasətinin təbliğinə, ideyaların, layihələrin gerçəkləşməsinə böyük dəstək verən ikinci bir ictimai institut yoxdur. Tolerantlığa və multikulturalizmə dəstək vermək məqsədi ilə Heydər Əliyev Fondu həm ölkəmizdə, həm də sərhədləri hüdudlarında saysız-hesabsız tədbirlər həyata keçirmişdi. Bu ölkələrin içində Bolqarıstanı, Fransanın müxtəlif regionlarını, Bosniya və Herseqovinanı, Həştərxanı və digər ölkələri göstərmək olar. Fond tərəfindən 2018-ci ildə Vatikanda yerləşən Müqəddəs Sebastiyan katokombaları bərpa edilmişdi. Zəngin tarixə malik olan bu katakombalar bütün xristian dünyası üçün mühüm əhəmiyyət daşıyır. Xristiyan dünyası üçün növbəti mühüm abidələrdən biri də Müqəddəs Marçellinio və Pietro katakombalarıdır. Bu katakomablar 2012-ci il iyunun 22-də Romada Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında imzalanmış "Roma katakombalarının bərpasına dair ikitərəfli Saziş" çərçivəsində bərpa edilərək 2016-cı ildə açılmışdı. Beləliklə, bu layihələr Azərbaycan Respublikasında tolerantlığa verilən töhfələrinin əyani sübutudur. Ancaq həqiqi tolerantlıq nümunəsi olan ölkə müxtəlif ölkələrin, dinlərin dini-tarixi abidələrinə bu qədər qiymət verə bilər. Mehriban xanım Əliyeva çıxışların birində vurğulamışdı: "Biz müsəlman ölkəsi olmaqla ənənələrimizə, dinimizə, mədəniyyətimizə hörmət edirik. Lakin bununla bərabər, biz dünyanın bütün mədəni müxtəlifliyinə eyni dərəcədə hörmətlə yanaşırıq" (5).

Fondun təşkilatçılığı ilə həyata keçirilən "Azərbaycan Parisin ürəyində" adlı layihə çərçivəsində 2015-ci il sentyabrın 8-də Parisdə "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda konfrans keçirilmiş və "Parisin ürəyində Azərbaycan musiqisi" adlı konsert təşkil olunmuşdu. Həmçinin dünya şöhrətli fotoqraf Reza Deqatinin Azərbaycanda hökm sürən tolerantlıq ab-havasını əks etdirən "Azərbaycan-tolerantlıq məkanı" fotosərgisi keçirilmişdi. Bu sərgi Azərbaycanda yaşayan müxtəlif millətlər və dinlərə mənsub xalqların həyat tərzi, adət-ənənələri haqqında məlumatlar verirdi. Fotoqrafın sərgidəki işlər Azərbaycanda müxtəlif dini icmaların bir-birinə hörmət və ehtiram şəraitində yaşadığını bir daha açıq şəkildə ifadə edirdi.

Beləliklə, Ümummilli lider Heydər Əliyev siyasi kursunun, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik siyasətinin və Azərbaycan Rspubikasının Birinci vitse-prezidentini fəaliyyəti nəticəsində çoxmədəniyyətlilik və tolerantlıq günü gündən möhkəmlənir. Bütün dünyada baş verən beynəlxalq terrorizm, islamofobiya, ksenofobiya, sivilizasiyaların toqquşması, milli zəmində yeni münaqişə ocaqlarının yaranması kimi problemlərin mövcud olduğu dövrdə Azərbaycan əsl sabitlik adası və tolerantlıq diyarı kimi tanınır. Azərbaycan bu gün sivilizasiyalararası dialoq prosesinə mühüm töhfələr verir.

Çoxmədəniyyətliliyin və tolerantlığın Azərbaycanda tarixi ənənələri yaşayır və inkişaf edir. Həm yaşlı, həm də indiki nəslin şüuruna və həyat tərzinə multikultural dəyərlər ömürlük həkk olunub.

**İstifadə edilmiş ədəbiyyat:**


1. http://www.baki-xeber.com/layihe/40320.html
2. http://gaidar.center/articles/multiculturalism-as-phenomenon.htm
3. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_%C9%99razisind%C9%99_ya%C5%9Fayan_azsayl%C4%B1_xalqlar
4. http://azerbaijan.az/portal/General/Religion/traditionReligion_03_a.html?
5. http://www.mehriban-aliyeva.az/site/ activities News /846357? part= activities & spart=speeches



***Açar sözlər**: multikulturalizm, tolerantlıq, Heydər Əliyev, müxtəlif etnoslar, mudrik siyasət*

*Ключевые слова: мультикультурализм, толерантность, Гейдар Алиев, различные этносы, мудрая политика*

*Key words: multiculturalism, tolerance, Heydar Aliyev, various ethnos, wise politics*

**Исторические традиции мультикультурализма и толерантности в Азербайджане**

**Резюме**

Понятие «мультикультурализм» известно уже с сороковых годов двадцатого века. Актуальным оно стало в шестидесятые, а преимущественная часть анализа этого явления относится к девяностым – оптимистичные десятилетия политики мультикультурализма, когда действительно казалось, что она может быть реализована практически в любых многокультурных обществах. В самом широком смысле, а также на идеологическом уровне, мультикультурализм является признанием разнообразия и равноценности культур. Мультикультурализм процветает благодаря мудрой политике Гейдара Алиева, и свидетельство тому является Азербайджан.

**Historical traditions of multikulturalizm and tolerance in Azerbaijan**

**Summary**

The concept of "multiculturalism" has been known since the forties of the twentieth century. It became relevant in the sixties, and the main part of the analysis of this phenomenon belongs to the nineties - the optimistic decades of multiculturalism policy, when it really seemed that it could be implemented in almost any multicultural society. In the broadest sense, as well as on the ideological level, multiculturalism is a recognition of the diversity and equivalence of cultures. Multiculturalism flourishes thanks to the wise policy of Heydar Aliyev, and evidence of this is Azerbaijan.

**Rəyçi: dos.S.Abbasova**